# Balakəndə II "Beynəlxalq xurma festivalı"





**Orta və yaşlı nəsil nümayəndələrinin xatirində olar. Ötən əsrin 60,70 və 80-cı illərində Balakəndə bol tütün, barama, qarğıdalı, fındıqla yanaşı 25-30 min tona qədər xurma da tədarük olunurdu. Kənddə yaşayan ailələrin hər birinin həyətyanı torpaq sahəsində xeyli xurma ağacı vardı. Hər ilin payızında yığılmış məhsul SSRİ-nin ayrı-ayrı respublikalarından, əsasən də Rusiyadan, Ukraynadan, Gürcüstandan, Belarusdan gələn "Şkoda"markalı böyük tonnajlı maşınlara yüklənərək satışa göndərilərdi. Rayondakı tədarük idarəsinin əməkdaşları alıcı tapmaqda xurma sahibinə yaxından köməklik göstərirdi.**

Bir çox ailələr xurma satışından əldə olunan yaxşı gəlir hesabına özünə ev tikir, övladını evləndirir şəxsi minik maşını alırdı. Yəni, iş elə qurulmuşdu ki, xurma satışı dövründə heç bir çətinlik, yubanma ortaya çıxmırdı. SSRİ-nin süqutundan sonra 15 müttəfiq respublika arasındakı iqtisadi, ticari əlaqələrin son dərəcə zəifləməsi əhaliyə xeyir verən kənd təsərrüfatı məhsullarının satışı sahəsində ciddi problemlər yaratdı. Bir çox ailə sahibləri ruhdan düşərək həyətlərindəki xurma ağaclarını kəsdilər. Bir qədər diribaş olanlar isə xurmadan bəkməz bişirərək, onu qurudaraq satışa çıxardı, qazanılan gəlir hesabına ailəsinin dolanışığını təmin etdi.

Sevindirici haldır ki, respublika Prezidenti İlham Əliyevin göstəriş və tövsiyyəsindən sonra kənd təsərrüfatının ənənəvi sahələrinin, o cümlədən meyvəçiliyin inkişafına son illər xüsusi fikir verilir, dövlət tərəfindən hərtərəfli qayğı göstərilir. Son illər ayrıayrı bölgələrdə, eləcə də rayonumuzda yeni emal müəssisələrinin , zavodların, soyuducu anbarın istifadəyə verilməsi dediklərimizə parlaq misaldır. Rayonlarda hər il Məhsul bayramlarının keçirilməsi kənd təsərrüfatı sahəsində çalışanların işə olan marağını daha da artırır.

Oktyabrın 27-28- də Balakən növbəti dəfə daha bir mötəbər tədbirə ev sahibliyi etdi, rayonumuzda ikinci dəfə "Beynəlxalq xurma festivalı"keçirildi.

Oktyabrın 27-də-festivalın ilk günü II Beynəlxalq Xurma Festivalı çərçivəsində "Qubek" otelində "Xurmanın əhəmiyyəti və ölkə iqtisadiyyatında rolu" mövzusunda elmi-praktiki konfrans keçirilib. Tədbir iştirakçıları əvvəlcə rayonda istehsal olunan kənd təsərrüfatı, o cümlədən xurma məhsullarının nümayiş etdirildiyi sərgilərlə tanış oldular.

Konfransda çıxış edən Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev ölkəmizdə qeyri-neft sektorunun inkişafının təmin edilməsinin və bu sahəyə investisiya qoyuluşunun Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb. Bildirilib ki, qeyri-neft sektorunun inkişafına səbəb olan amillərdən biri də kənd təsərrüfatının davamlı inkişafıdır. Son illər Balakən rayonunda kənd təsərrüfatının ənənəvi sahələrinin inkişaf etdirilməsi, torpaqlardan səmərəli istifadə olunması, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Aqrar sahədə görülən işlər rayon iqtisadiyyatının inkişafına böyük təkan verib.

Qeyd olunub ki, hazırda rayonda kənd təsərrüfatının bütün sahələrində, o cümlədən meyvəçilikdə dinamik inkişaf var. Sahibkarlar və təsərrüfatçılar üçün yaradılan əlverişli şərait rayonda meyvə bağlarının sahəsinin gündəngünə genişlənməsinə səbəb olub. Balakənin mövcud iqlim şəraiti, təbiəti, torpağı burada meyvəçiliyin inkişaf etdirilməsi üçün hər cür imkan yaradır. Balakən respublikamızda meyvəçiliyin inkişaf etdiyi rayonlardan biri kimi tanınıb. Xurma Balakəndə ən çox istehsal olunan və bol məhsul verən meyvəçilik sahələrindən biridir. Balakən xurması dadına, növlərinin sayına, keyfiyyətinə görə həmişə fərqlənib. Prezident İlham Əliyevin tövsiyəsi ilə ötən il rayonda "Balxurma" MMC-nin meyvə və giləmeyvələrin quru və yarımquru emalı müəssisəsinin fəaliyyətə başlaması, həmçinin "Balacans" konserv zavodunun nəzdində "Balakan Foods" müəssisəsinin yaradılması nəticəsində rayonda bu sahəyə maraq artıb. Bu müəssisələrdə istehsal üçün meyvələr sakinlərin şəxsi xurma bağlarından yığılır, tam gigiyenik və ekoloji cəhətdən təmiz məhsul istehsal edilir. Xurma məhsulu qablaşdırılmış formada daxili bazara, həmçinin MDB, Avropa və ərəb ölkələrinə ixrac olunur. Bu müəssisələrin fəaliyyətə başlaması nəticəsində 200-dək sakin işlə təmin edilib. Bu isə əhalinin rifah halının və gəlirlərinin artmasına öz müsbət təsirini göstərir.

Festivalın ikinci , rəsmi açılış günü, saat əvvəlcədən bəlli olduğundan səhər-səhər minlərlə insan Heydər Əliyev adına şəhər Mədəniyyət və İstirahət Parkına toplaşmışdı. Qonşu Zaqatala, Qax, Şəki, Oğuz rayonlarından gələn xeyli qonaq da tədbir iştirakçıları arasında idi.

Məlumat üçün bildirim ki, xurma qədim relikt bitkilər qrupuna aiddir. Qədimlərdən insanlara məlum olan bu giləmeyvə el arasında daha çox xurma kimi tanınsa da zamanzaman "Tanrı qidası", "Çin şaftalısı","Ürək alması","Qış albalısı" adlandırılmışdır. Xurmanın 800 növü olsa da respublikamızda əsasən dörd sort-Qafqaz, Virgin, Şərq və Çin xırnikləri becərilir. Şərq xurması ilk dəfə 1888-ci ildə Uzaq Şərqdən Qafqaza gətirilmişdir. Azərbaycanda isə ilk dəfə Virgin xurması 1926-cı ildə Lənkəranda əkilmiş, sonrakı illərdə qalan növlər də ayrı-ayrı rayonlarda becərilməyə başlanmışdır. Balakən xurması bütün xurmalardan dadlı, insan səhhəti üçün xeyirlidir.

... Nəhayət, çoxdan gözlənilən məqam yetişdi, ulu öndərin adını daşıyan parkda festivalın rəsmi açılışına start verildi. Balakən rayon İcra Hakimiyyətinin və "Balkhoorma" şirkətinin birgə təşkilatçılığı ilə düzənlənən festivalda Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların, xarci ölkə səfirliklərinin nümayəndələri, Milli Məclisin deputatı Kamilə Əliyeva, həmçinin digər qonaqlar və minlərlə rayon sakini iştirak edirdi.

Rayon rəhbərliyi, hüquqmühafizə orqanlarının məsul əməkdaşları, qonaqlar əvvəlcə ulu öndərin uca zirvədə qərar tutan möhtəşəm abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad etdilər.Sonra mədəniyyət və istirahət parkının ərazisində qonaqlar tərəfindən xurma ağacları əkildi. Festival iştirakçıları xüsusi zövqlə, son dərəcə gözəl, bayramsayağı bəzədilmiş parkda xurmadan hazırlanmış kulinariya məhsullarına və müxtəlif cür kompozisiyalara, kənd təsərrüfattı məhsullarının nümayiş etdirildiyi sərgilərə baxdılar. Xurma, alma ,armud, qoz, fındıq, şabalıd və digər meyvələr, arıçılıq, ət, süd, bostan və tərəvəz məhsulları,"Azəryemsənaye"MMC-nin və yerli konserv zavodunun istehsal etdiyi müxtəlif çeşiddə məhsullar festival iştirakçılarının böyük marağına səbəb oldu.

Yun darayan, ip əyirən, xalça toxuyan, döşək sırıyan xanımların əl işləri qonaqları heyran etdi, onlar Balakən mətbəxinin nümunələrindən daddılar. Pəhləvanların məharəti, folklor kollektivlərinin rəngarəng çıxışları ,əyləncəli yarışlar sonsuz maraqla izlənildi. Süd çörəyinin- maxaranın, buğda və qarğıdalı unundan çörəyin bişirilməsinə qonaqlar maraqla tamaşa etdilər.

Festivalın rəsmi açılış mərasimində rayon icra hakimiyyətinin başçısı İslam Rzayev, çıxış etdi.

Rayon rəhbəri xüsusi olaraq vurğuladı ki, dövlət başçısı İlham Əliyev regionların sosial-iqtisadi inkişafını, kənd təsərrüfatının ənənəvi sahələrinin dirçəldilməsini daim diqqət mərkəzində saxlayır.

Balakəndə vaxtı ilə hər payız mövsümündə 25 min tondan çox xurma tədarük olunub. İndi isə məhsuldarlıq 14-15 min tondur.Mövcud xurma bağları 843 hektardır. Biz bağları genişləndirməklə gələcəkdə xurma tədarükünü daha da artırmaq niyyətindəyik. Xurma ixrac potensialı yüksək olan məhsuldur. Hazırda rayonumuzda xurma ixracatı ilə məşğul olan onlarla sahibkar fəaliyyət göstərir. Məhsul əsasən Rusiya və Ukraynaya ixrac olunur, həmçinin daxili bazarda da satışa çıxarılır.





**Balakəndə keçirilən festival Bakıdan gəlmiş tanınmış müğənnilərin və yerli incəsənət ustalarının-Azərbaycan Respublikasının xalq artistləri Aygün Kazımova, Faiq Ağayev, digər sevilən müğənnilər Talıb Tale, Sevda Yəhyayeva, Abgül Mirzəliyev, Rəvan Əliyev və başqaları son dərəcə maraqlı konsert proqramı ilə çıxış etdilər.**

**Zeynəddin Həsənli,
Fariz Nəcəfov
Balakən**